BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2009*

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ SUMQAYIT ŞƏHƏRİNİN BEYNƏLXALQ İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏLAQƏLƏRİ

**H.A.ALIYEV**
***Sumqayıt Dövlət Universiteti***
***hamid.aliyev@mail.ru***

*Məqalədə şəhərin əsasasının qoyulduğu 40-cı illərin sonu – 50-ci illərdə onun sənaye müəssisəsi kimi keçmiş Sovet İttifaqında böyük nüfuz qazanmasından, SSRİ-nin çökməsi nəticəsində Sumqayıtın sosial-iqtisadi, mənəvi-mədəni həyatına öz mənfi təsirini göstərməsindən, qırılmış əlaqələrin, pozulmuş münasibətlərin şəhərin beynəlxalq nüfuzuna təsir etməsindən bəhs olunur. 1993-cü ilin sonlarında bu əlaqələrdə yenidən canlanmanın başlanması və Sumqayıt şəhərinin 12 dövlətin şəhərləri ilə əməkdaşlıq əlaqələrinin mövcud olması geniş şəkildə izah edilir.*

Şəhərin əsasının qoyulduğu 40-cı illərin sonu - 50-ci illərdə onun sənaye müəssisələrinin keçmiş Sovet İttifaqında, o zaman sosialist ölkələri adlandırdığımız, dövlətlərdə böyük nüfuz qazanmışdı. Sumqayıt 80-cı illərin ortalarına kimi tikilmiş, şəhərin energetika sənayesi, metallurgiya, kimya müəssisələrinin, inşaat-tikinti obyektləri dünyanın müxtəlif ölkələrindən buraya gəlmiş minlərlə görkəmli ictimai-siyasi xadimlərin, elm və istehsalat yenilikçilərinin, sadə peşə adamlarının diqqətini özünə cəlb etmişdi. Şəhər, onun sənaye müəssisələri və sadə, zəhmətkeş insanları barədə xoş təəssürat yaratmış, onun haqqında romanlar, poemalar, povestlər, mahnılar yazılmışdır.

80-cı illərin ortalarında Sovet İttifaqında siyasi və dövlət rəhbərliyinə gəlmiş Mixail Qorbaçovun və onun başabəla yenidənqurma islahatları və bədnam siyasəti bütün dünyada, o cümlədən keçmiş Sovetlər Birliyində ciddi problemlər yaratmışdı. On illərlə mehriban, səmimi bir ailə kimi yaşayan sovet respublikalarında milli zəmində daxili qarşıdurma yaranmış, respublikalar arasında sərhəd məsələləri zəminində başlanan münaqişələr və sonu ciddi toqquşmalara səbəb olan ölkədaxili problemlər SSRİ-nin tərkibindən çıxmaq cəhdləri əvvəlki sakit və sabit münasibətləri pozulması ilə, son nəticədə isə SSRİ-nin dağılması və Sov. İKP-nin iflası ilə başa çatmışdı.

Bu proseslər Sumqayıtdan da yan keçməmişdi. Şəhərin beynəlxalq nüfuzunu dünya ictimaiyyətinin nəzərində gözdən salmaq istəyən, dostluq və qardaşlıq şəhəri kimi o zaman təkcə SSRİ-də deyil, habelə bütün dünyada şöhrət qazanmış bu gənclik şəhərini, onun əhalisinin 90%-ni azərbaycanlıların təşkil etdiyi Sumqayıtın adına ləkə yaxan ermənilər və onların Moskvada Qorbaçovun ətrafında toplaşan Aqanbekyan və b. erməni kampaniyaları, beynəlxalq erməni lobbisi və s. qüvvələr şəhərdə 1988-ci il 27-29 fevral hadisələrini təşkil etmişdilər. Şübhəsiz ki, Sumqayıtda baş vermiş hadisələrin beynəlxalq erməni təşkilatları tərəfindən «azərbaycanlıların vəhşi, barbar bir xalq olması», «onlarla birgə yaşamağın mümkün olmaması» kimi böhtanları və

bunun ardınca SSRİ-nin çökməsi Sumqayıtın sosial-iqtisadi, mənəvi-mədəni həyatına da öz mənfi təsirini göstərmişdi. Qırılmış əlaqələr, pozulmuş münasibətlər şəhərin beynəlxalq nüfuzuna da təsir etmişdi.

90-cı illərdə respublikada siyasi hakimiyyətə gələn təcrübəsiz, təsadüfi adamlar öz şəxsi ambisiyalarını hər şeydən, ilk növbədə xalqdan, onun illər boyu Sumqayıtda yaratdıqları maddi və mənəvi zənginliyə laqeyd münasibəti burada sənaye, tikinti, məişət, təhsil, elm, mədəniyyət ocaqlarının fəaliyyətinə də mənfi təsir göstərdi. Şəhərin təsərrüfat həyatında başlanan böhran və durğunluq sənaye müəssisələrinin tədricən bağlanmasına, burada çalışan minlərlə əmək adamının, ilk növbədə fəhlələrin və mühəndis-texniki işçilərin işsiz vəziyyətinə düşməsinə səbəb olmuş, şəhərin beynəlxalq əlaqələrini zəiflətmişdi.

1993-cü ilin iyununda xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyevin bütün təşəbbüs və cəhdlərinə baxmayaraq respublikada onun hakimiyyətinə qarşı açıq çıxmağa cəsarət etməyən qüvvələrin müqavimətinə baxmayaraq görkəmli dövlət xadimi və böyük siyasətçini tutduğu dönməz yoldan çəkindirə bilmədilər. Öz «opponentlərinə» və rəqibəlrinə qarşı yalnız işi və əməli fəaliyyəti ilə cavab verən Heydər Əliyev daxili çəkişmə və qarşıdurmaya nəhayət son qoyaraq 1996-cı ilin mayında neft haqqında «Əsrin müqaviləsi»ni – beynəlxalq müqaviləni imzalamaqla respublikanın xarici siyasətində və beynəlxalq münasibətlər sistemində yeni addım atdı, Azərbaycanı təcrid olunmuş, təklənmiş vəziyyətdə qalan dövlətdən yeni bir mərhələyə qədəm qoymasına nail oldu.

90-cı illərin əvvəllərində SSRİ dağıldıqdan sonra yaranmış çətinliklər nəticəsində respublikanın beynəlxalq və dostluq əlaqələrində də bir növ durğunluq əmələ gəlmişdi. Yalnız 1993-cü ilin sonlarından bu əlaqələrdə yenidən canlanma başlanmışdı. 90-cı illərin ikinci yarısında – 1997-ci ildə Sumqayıtla Lyüdviqshafen arasında iki şəhərin qardaşlıq əlaqələrinin 20 illiyi təntənəli surətdə qeyd edilmişdi. Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının müavini Akif Zeynalov başda olmaqla rəsmi nümayəndə heyəti və «Karvan» folklor ansamblı Lyüdviqshafenə getmişdilər. Yubiley münasibətilə orada dostluq gecəsi keçirilmiş, şəhərin mərkəzi küçələrindən birinə «Sumqayıt xiyabanı» adı verilmişdi. Bu yığıncaqda çıxış edən Lyüdviqshafen şəhərinin bələdiyyə başçısı doktor Volfanq Şulte lyüdviqshafenlilərin Sumqayıtla qardaşlıq münasibətlərini gələcəkdə daha da inkişaf etdirmək niyyətində olduqlarını bildirmiş və bu əlaqələrin hər iki şəhərin inkişafına səmərəli təsirini vurğulamışdı. Nümayəndə heyətinin başçısı A.Zeynalov yubiley şənliklərinə dəvət üçün təşəkkür etmişdi və sumqayıtlıların da Lyüdviqshafenlə dostluq əlaqələrini inkişaf etdirmək fikrində olduqlarını açıqlamışdı.

Azərbaycan Respublikasının AFR-dəki səfiri Hüseynağa Sadıqov dövlətimizin başçısı Heydər Əliyev cənablarının rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən ictimai-siyasi və iqtisadi islahatlar, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə yönəlmiş tədbirlər barədə məlumat vermişdi. Azərbaycanın Almaniya ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq imkanlarından danışmış və respublika prezidenti Heydər Əliyevin Almaniyaya rəsmi səfərindən sonra bu əməkdaşlığın yeni vüsət aldığını, Sumqayıtla Lyüdviqshafen arasında dostluğun böyük əhəmiyyətini vurğulamışdı. Lyüdviqshafenin mərkəzi meydanında Azərbaycan xalq mahnılarını və rəqslərini ifa edən «Karvan» folklor ansamblının çıxışları sakinlər tərəfindən alqışlarla qarşılanmışdı [1, 3]. 1997-ci il Sumqayıt və Lyüdviqshafen şəhərlərinin

sakinləri üçün əlamətdar yubileylər ili olmuşdur. Həmin ilin iyun ayında Almaniyada, oktyabr ayında isə Sumqayıtda yubileylər təntənə ilə qeyd olunmuşdu.

Alman qonaqlarının səfəri sırf yubiley xarakteri daşısa da, gələcək iqtisadi münasibətlərin bərpası və buna nail olmağın yolları diqqət mərkəzində idi. Onlara prezident Heydər Əliyevin Sumqayıtı xüsusi iqtisadi zonaya çevirmək təşəbbüsünün həyata keçirilməsi üçün görülən işlər barədə geniş məlumat verilmişdi.

Azad bazar iqtisadiyyatı inkişaf etmiş kapitalist ölkələrində olduğu kimi Sumqayıta da böyük imkanlar verəcək, onun gələcəyi, hədsiz imkanlara malik olacaq, həmçinin dünya miqyasında öz gözəlliyi, səliqə-səhmanı və təmizliyi ilə seçiləcək [6, 3].

Tərəfdaş şəhərlərin rəhbərləri qəbulda çıxış edərək bildirmişdilər ki, 25 illik dostluq əlaqələri sonralar tərəfdaşlıq münasibətlərinə çevrilmiş, iki sənaye mərkəzi arasında münasibətlərin statusunu rəsmi surətdə möhkəmləndirməklə özünü tamamilə doğrultmuşdu.

Almaniya nümayəndə heyətinin üzvü, dostluq münasibətlərinin beşiyi başında duranlardan biri, dəfələrlə Sumqayıtda olmuş cənab Gisbert Hoyzelman AzərTAC-ın müxbiri ilə söhbətində demişdi ki, Sumqayıt 25 il bundan əvvəl SSRİ-nin tərkibində idi və biz biri-birimizdən təcrid olunmuşduq. Hər şey çox çətinliklə başlanırdı. Lakin hər iki şəhərin və xalqın qarşılıqlı marağı və əməkdaşlıq səyləri göz qabağında idi. Beləliklə, 25 il ərzində müxtəlif sahələri təmsil edən mütəxəssislərdən, elm, incəsənət və həmkarlar ittifaqları xadimlərindən, gənclər qruplarından, məktəblilər və idmançılardan ibarət 53 nümayəndə heyəti mübadiləsi olmuşdur. Mindən çox sakin bir-birinə qonaq getmişdi.

Cənab Hoyzelman vurğulamışdı ki, biz Sumqayıtla tərəfdaşlıq münasibətlərimizi bundan sonra da genişləndirmək və möhkəmləndirmək niyyətindəyik. Hesab edirik ki, məqsəd nümayəndə heyətləri mübadiləsi ilə, ümumi problemləri birgə müzakirə etməklə onların həllini tapacağıq və beləliklə, ümumi siyasətimizə – Yer üzərində sülhü qoruyub saxlamaq işində daha fəal surətdə dəstək verə biləcəyik [2, 2].

Sumqayıtın xarici iqtisadi əlaqələri də getdikcə genişlənir. Bu, təkcə şəhərin sənaye müəssisələrində istehsal olunmuş müxtəlif məhsulların ixracı ilə məhdudlaşmır. Sumqayıt dünya ölkələrinin bir çox şəhərləri ilə dostluq və qardaşlıq əlaqələri qurmuşdur. Bunlar Almaniyanın Lyüdviqshafen, Çin Xalq Respublikasının Çyu Cou, Ukraynanın Çerkassı şəhərləridir. 2003-cü ilin may ayında İtaliyanın Bari şəhəri ilə tərəfdaşlıq əlaqələri yaradılmış və bir çox mühüm sənədlər imzalanmışdır. 2004-cü ildə Avstriyanın Lints və Belarusiyanın Magilyov şəhəri ilə münasibətlər qurmaq üçün müəyyən işlər aparılmışdı.

Son illərdə mətbuatda Sumqayıtın beynəlxalq əlaqələri barədə maraqlı faktlara rast gəlirik. Müasir dünyanın inkişafını beynəlxalq əlaqələrsiz təsəvvür etmək çətindir. Bu cür əlaqələr müxtəlif sahələr üzrə təcrübə mübadiləsinin aparılması, sosial-iqtisadi və mədəni münasibətlərin qurulması üçün yeni şərait yaradır. Sumqayıt Almaniyanın Lyüdviqshafen, Çin Xalq Respublikasının Çyu Cou, Ukraynanın Çerkassı şəhərləri ilə olan qardaşlaşmış şəhərlər əlaqəsini müvəffəqiyyətlə davam etdirir.

2001-ci ilin aprelindən başlayaraq Rustavi ilə Sumqayıt arasında qırılmış sıx iqtisadi əlaqələr yenidən bərpa olunmağa başlamışdı. O zaman Gürcüstan prezidenti Eduard Şevardnadzenin və Azərbaycan prezidenti Heydər Əliyevin məqsədyönlü siyasəti sahəsində Rustavi və Sumqayıt sənaye müəssisələri «Azot» səhmdar cəmiyyəti ilə «Azərkimya» Dövlət Şirkəti arasında bağlanan müqaviləyə görə Rustavi

Azərbaycana müxtəlif gübrələr göndərməyi öhdəsinə götürmüşdü [7, 3].

2004-cü ildə Sumqayıtın partnyor əlaqələri olan şəhərlər sırasına İtaliyanın Bari şəhəri də əlavə edilmişdi. 2004-cü ilin may ayında Sumqayıtın rəsmi nümayəndə heyəti Bariyə dəvət olunmuş, iki şəhər arasında əməkdaşlıq əlaqələrinin yaranması ilə bağlı saziş imzalanmışdı. Səfər müddətində İtaliyanın iş adamları ilə keçirilən görüşlər gələcəkdə səmərəli iqtisadi münasibətlərin yaradılmasına ümid verirdi [5, 4].

Gürcüstanın Rustavi şəhəri ilə əlaqələrin bərpasına dair saziş imzalanmışdır. Bu yaxınlarda isə nümayəndə heyəti Belarusun Mogilyov şəhərinə səfər etmiş, əməkdaşlıq haqqında niyyət protokolu imzalanmışdır. Avstriyanın, İtaliyanın, Qazaxıstanın sənaye şəhərləri ilə də münasibətlərin qurulması nəzərdə tutulub.

2007-ci ildə Sumqayıtın 12 dövlətin şəhərləri ilə əməkdaşlıq əlaqələri mövcuddur. Həmin ildə Almaniyanın Lyüdviqshafen şəhəri ilə münasibətlərin yaranmasının 30 illiyi böyük təntənə ilə qeyd olunmuşdu. Qonaqları dövlətimizin başçısı cənab İlham Əliyevin qəbul etməsi isə yubiley tədbirlərinə xüsusi status vermişdi.

2005-ci ilin may ayında Sumqayıtda müasir tipli elektrik stansiyasının tikintisi məqsədilə bir sıra vacib sənədlər imzalanmışdı. Bu, Azərbaycanın energetikasının təhlükəsizliyini təmin etməkdə mühüm rol oynayacaqdır. Onun həyata keçirilməsi 2004-2008-ci illər üçün ölkənin sosial-iqtisadi və 2005-2015-ci illər üçün yanacaq-energetika kompleksinin inkişafı proqramlarında öz əksini tapmışdır. İmzalanan sənədlər arasında yeni elektrik stansiyasının tikintisi üçün Azərbaycana kredit verəcək bir sıra Avropa banklarının konsorsiumları ilə bağlanan maliyyə sazişi də var idi.

Sumqayıtda yeni buxar-qaz qurğusunu Almaniyanın tenderdə qalib gəlmiş «Siemens» şirkəti tikəcək. «Azərenerji» və «Siemens» arasında bu layihənin maliyyə və texniki tərəflərini əks etdirən müqavilə imzalanmışdı. Bu sənədləri «Azərenerji»nin prezidenti, Etibar Pirverdiyev və «Siemens»in nümayəndələri Kristian Urbanke, Raynxard Kunetman imzalamışdılar. Müqavilədə Sumqayıt İstilik Elektrik Mərkəzinin ərazisində yeni tipli qaz-buxar qurğusunun tikintisini nəzərdə tuturdu. 2004-cü ildə başlanmış tikinti işləri 2008-ci ilin üçüncü kvartalında başa çatacağı gözlənilirdi. Bundan əlavə, «Azərenerji» və Finlandiyanın «Enprima» şirkəti arasında imzalanan müqavilə isə Sumqayıtın enerji layihəsinin həyata keçirilməsinin ikinci mərhələsini əhatə edir. Bu sənədi «Azərenerji»nin prezidenti E.Pirverdiyev, «Enprima» tərəfindən isə şirkətin prezidenti Eyero Aurane imzalamışdılar [3, 4].

Sumqayıtda yeni qurğunun tikintisi, Azərbaycanın enerji sisteminin güclənməsinə təkan verəcək. Enerji blokunun tikintisinə 265 milyon avro xərclənəcək, daha 30 milyon avro isə obyektdə qaz infrastrukturunun tikintisinə və yəni yeni qaz kəmərinin çəkilişinə sərf ediləcək. Yeni etibarlı ötürücü infrastrukturunun yaradılması üçün yarımstansiyalar və yüksək voltlu ötürücü xətlər də inşa ediləcək. Onların ümumi uzunluğu 107 km-ə çatacaqdır. Xatırladaq ki, «Siemens» şirkəti ilə Azərbaycan Respublikasının əməkdaşlıq ənənələri var. Bu şirkətlə «Azərenerji» 1998-ci ildən əməkdaşlıq etməyə başlamışdı. Həmin müddətdə tərəflərin birgə səyi ilə bir sıra uğurlu layihələr həyata keçirilmişdi [8, 3].

Beynəlxalq münasibətlərin konseptual müstəvidə həyata keçirilməsi həm də Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin diplomatik missiyaları ilə əməkdaşlıqdır. Bu baxımdan Fransanın, İtaliyanın, İran İslam Respublikasının səfirlərinin Sumqayıta səfərləri zamanı aparılan danışıqlar, şəhərlə sıx tanışlıq, dostluq və iqtisadi əlaqələrin qurulması istiqamətində yeni imkanlar açır [4, 4].

İlk baxışdan adi görünən həll edilmiş bir problemin də üstündə dayanmaq istərdik. Sumqayıtda 500-ə yaxın çoxmərtəbəli bina var. Onların əksəriyyətində 10 ildən artıq idi ki, liftlər işləmirdi. Şəhər rəhbərliyi dəyişəndən sonra, qısa müddət ərzində «Lift-Servis» müəssisəsinin fəaliyyəti bərpa edildi, Ukrayna, Qazaxıstan və Rusiyadan zəruri ehtiyat hissələri gətirildi, mütəxəssislər işə qaytarıldı və indi şəhərin 100-dən çox binasında lift işləyir.

Uzun müddət Sumqayıtın metallurgiya nəhəngi sayılan Boru-Prokat zavodu fəaliyyətini dayandırmış, onun çoxminli kollektivi isə işsiz qalmışdı. 1999-cu ildə müəssisə özəlləşdirildikdən sonra onun həyatında dirçəliş dövrü başlandı. Metallurgiya nəhənginin bərpası layihəsinin həyata keçirilməsi üçün Britaniyanın «Targol İnvestment» LTD kompaniyası səhmdar cəmiyyəti müəssisəyə milyonlarla dollar həcmində investisiya qoyub. Burada Almaniyanın «Furs» firmasının iştirakı ilə İtaliyadan 70 tonluq elektropoladəritmə sobası, eyni həcmdə «soba-çalov» aqreqatı, həmçinin müxtəlif poladəritmə əməliyyatlarını həyata keçirməyə imkan verən «320» markalı polad profillər yayan orta çeşidli dəzgah gətirilmişdir. Görülmüş işlər nəticəsində «Azərboru» SC-də 1700 fəhlə işə başlayıb. Müəssisənin tam bərpasından sonra isə daha 4000 nəfər işlə təmin olunacağı nəzərdə tutulmuşdur [4, 4].

«Azəralüminium» Səhmdar Cəmiyyətində də bərpa işləri yüksək sürətlə aparılır. 2001-ci ildə müəssisəni 25 il müddətinə idarə etməyə götürən Hollandiyanın «Fondel Metall» firması indiyəcən SC-nə 40 milyon dollar həcmində kapital qoyub. Nəticədə uzun illər fəaliyyəti dayanmış müəssisədə iki korpus işə salınıb və yenidən bərpa edilmiş 164 elektroliz vannası sutka ərzində 60 ton ilkin alüminium istehsal edir, 60 faizi yüksək markalı A-8 alüminiumdur. Biznes planına uyğun olaraq, müəssisə tam işə salınacaq ki, bunun da sayəsində 2500 nəfər işlə təmin ediləcəkdir.

Yüngül sənaye müəssisələri olan Xovlu iplik və Toxuculuq fabriklərinin ayrı–ayrı sexlərinin işə salınması, həmin müəssisələrdə ayrı-ayrı istehsalat sahələri bərpa olunması, yeni avadanlıqlar qurulması 200 nəfərin işlə təmin olunmasına imkan vermişdi [4, 4].

2001-ci ildə ölkə rəhbərinin təşəbbüsü və şəxsi iştirakı ilə etilen-polietilen zavodunda çox möhtərəm bir kompleks – buxar-generator qurğusu işə salındı. Bu dövlət zəmanəti ilə «Eksimbank» tərəfindən ayrılmış kredit və «Nicemen-Corporation» və «Chioda» yapon firmalarının sərmayəsi hesabına mümkün oldu. Layihənin həyata keçirilməsi ölkənin kimya sənayesindəki bir çox mövcud problemlərin həllinə imkan verdi. Əgər əvvəllər «Azərkimya» dövlət şirkəti enerji sərfi üçün «Azərenerji» dövlət şirkətinə ildə 219 milyard manat ödəyirdisə, keçən il buxar-generator qurğusunun işə salınması nəticəsində şirkət özü enerji istehsal etdiyinə görə, enerji sərfi ona 108 milyard manata başa gəlmişdi. Eyni zamanda suya və istiliyə görə də 86 milyard manata qədər vəsaitə qənaət edilmişdi.

Ümumiyyətlə işsizlik əsas problem kimi ölkə prezidenti Heydər Əliyevin daim diqqət mərkəzində olub. Ölkə başçısının dəfələrlə qeyd etdiyi kimi bu məsələni həll etmək üçün ilk növbədə sahibkarlığı inkişaf etdirmək, iş adamları üçün əlverişli şərait yaratmaq lazımdır. Bu baxımdan Sumqayıtda 1998-ci ildə yaradılmış Alman-Azərbaycan «ADES» birgə müəssisəsinin uğurlu fəaliyyəti təqdirəlayiqdir. Məişət – sənaye tullantılarının toplanması və emalı ilə məşğul olan firmada daha 100 nəfər sumqayıtlı işlə təmin olunmuşdu. Burada zibil konteynerləri üçün salafan kisələrin istehsalına başlanmış, məişət tullantılarını yenidən emal edən dəzgahların işə

salınması isə əlavə 400 iş yerinin açılmasına imkan verəcəkdir.

Tikinti materialları istehsalı sahəsində də şəhər üzrə müəyyən uğurlar əldə edilib.. Tikinti materialları istehsal edən özəl şirkətin bazası əsasında yaradılmış «FM» ortaq firmasında tikinti – quraşdırma işləri artıq başa çatdırılıb, prezident seçkiləri ərəfəsində istehsal ediləcək. Əlavə olaraq 120 iş yeri açılmış, onların ümumi sayı 300-ə çatdırılacaq.

Türkiyənin «Dizayn groupe» firması isə plastik boru zavodunun tikintisinə başlayıb. Müəssisə müxtəlif diametrli və təyinatlı plastik borular buraxmağa başlayacaq, əvvəllər bu məhsul xaricdən gətirilirdi. Ümumiyyətlə, sumqayıtda belə bir zavodun tikilməsi olduqca vacibdir. Yeni texnologiya əsasında quraşdırılan müasir zavod fəaliyyətə başladıqdan sonra şəhərin 400 sakinin işlə təmin olunacağı qeyd edilirdi.

Hacı Zeynalabdin qəsəbəsində «Ceyran-Saray» Türk-Azərbaycan firmasının fəaliyyətə başlaması da müəssisədəki xalçaçılıq sexində 150 qadını işlə təmin edib. Un məmulatları istehsal edən sexin açılmasının planlaşdırılması isə daha 500 nəfərin işə cəlb olunmasına imkan vermişdi. Bir sözlə, Sumqayıtda işsizliyin aradan qaldırılması üçün ciddi tədbirlər görülür.

Sumqayıt həm də idman şəhəridir. Onun idmançıları ölkəmizi beynəlxalq miqyaslı yarışlarda layiqincə təmsil edirlər. Bu, 2000-ci illərdə Azərbaycanın baş naziri olmuş gənclərin şəriksiz lideri, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin fəaliyyətinin nəticəsidir. Sumqayıt da bu ümumxalq hərəkatından kənarda qalmırdı. Şəhərin mərkəzində geniş, işıqlı, hər cür şəraiti olan 200 kvadratmetrlik stolüstü tennis zalı sakinlərin ixtiyarına verilmişdi. Ümumiyyətlə, son zamanlar prezident İlham Əliyevin Sumqayıta və sumqayıtlılara göstərdiyi xüsusi diqqətin nəticəsində burada sosial problemlərin həlli daha da sürətlənib.

Bütün görülmüş işlər, sözsüz ki, şəhər iqtisadiyyatının inkişafına öz müsbət təsirini göstərir. Təkcə 2003-cü ilin aprelindən sentyabr ayınadək olan müddətdə Sumqayıtda istehsalın həcmi 38 faiz artıb. Həmin müddətdə 338 milyard manatlıq məhsul istehsal edilib. Ümumiyyətlə, istehsalın həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 39,7 faiz çoxalıb və orta aylıq əməkhaqqı 11,8 faiz yüksəlib.

Şəhərin iqtisadiyyatındakı bu dəyişikliklər xarici biznesmenləri daha çox cəlb etməyə başlayıb. 2003-cü ilin 6 ayı (aprel-oktyabr) ərzində Sumqayıt sənayesinə 30 milyon dollar həcmində sərmayə qoyulub. Bu rəqəmləri həm də şəhər sakinlərinin həyat və güzəranının yaxşılaşdırılması üçün aparılan məqsədyönlü işin nəticələri kimi qəbul etmək olar.

2003-cü ilin oktyabrında alimlərdən, mütəxəssislərdən, təcrübəli iş adamlarından təşkil olunmuş xüsusi komissiya 2004-2010-cu illər üçün Sumqayıtın perspektiv inkişaf konsepsiyası üzərində işi başa çatdırmaq üzrədir, onun tətbiqi şəhərin bütün sahələrində köklü dəyişikliklər edilməsi üçün planlaşdırılmışdı.

## ƏDƏBİYYAT


1. «Azərbaycan» qəzeti, 1977, 13 iyul.
2. «Azərbaycan» qəz., 2002, 7 iyul.
3. «Azərbaycan» qəzeti, 2005, 20 may.
4. Cabbarov Ə. Sumqayıt inamla və İlhamla irəliyə doğru daha uğurlu addımlar atacaq // «Azərbaycan» qəz., 2003, 8 oktyabr.
5. Əliyev V. Biz uzun və şərəfli bir yolun başlanğıcındayıq. «Xalq» qəz., 2005, 14 aprel.
6. Əliyev X. Azərbaycan-Almaniya dostluğunun XXI əsr təməli. «Azərbaycan» qəz., 1997,

29 oktyabr.
7. Məmmədov Ş. Rustavi Sumqayıtla əlaqələri bərpa edir // «Azərbaycan» qəz., 2001, 25 aprel.
8. Nəcəfxanlı Ə. Sumqayıt – hər sahədə dinamik inkişaf var. «Xalq» qəz., 2007, 15 avqust.

## МЕЖДУНАРОДНЫЕ ЭКОНОМИЧЕСКИЕ, НАУЧНО-ТЕХНИЧЕСКИЕ И КУЛЬТУРНЫЕ СВЯЗИ СУМГАИТА В ПЕРИОД НЕЗАВИСИМОСТИ

**Г.А.АЛЫЕВ**

**РЕЗЮМЕ**

Промышленность Сумгаита, основы которого были заложены в 50-х годах, играла важную роль в развитии промышленности не только бывшего Советского Союза, но и бывших социалистических стран и государств. Развитие энергетической, металлургической, химической промышленностей, строительство жилых объектов привлекло сюда не только простых рабочих, но и видных общественно-политических деятелей, научных и производственных людей. Об этом написано не мало романов, поэм, повестей и песен. Автор данной статьи пытается рассмотреть связи Сумгаита с другими странами этого периода. Необходимо отметить, что эти связи поддерживаются и по сей день.

## SUMQAIT'S INTERNATIONAL ECONOMICAL, SCIENTIFIC-TECHNICAL AND CULTURAL RELATIONS DURING INDEPENDENCE PERIOD

**Q.A.ALIYEV**

**SUMMARY**

Industry of Sumqait which was founded at $50^{th}$ years played main roil not only in industry of past USSR, but in industry of socialist states. Development of energetic, metallurgy, chemical industries, building of new houses coaxed many people here, including famous politics, scientific and industry specialist. Many novels, poems, songs were written about this. Author of this article tries to look through these relations which being develop today.